**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№340/3** **15 fevral 2022-ci il**

**2021-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması barədə**

Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 4.1-ci “2021-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması” və Palata Şurasının 2021-ci il 23 fevral tarixli 328/7 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2021-ci il üçün Plan-qrafik”ə əsasən 2021-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin monitorinqinə dair Auditin hüquqi tənzimlənməsi və keyfiyyətin yüksəldilməsi idarəsinin rəisi E.İbrahimov tərəfindən hazırlanmış icmal-təhlili müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2021-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin monitorinqinə dair hazırlanmış icmal-təhlil” nəzərə alınsın (əlavə olunur).

2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov), Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (V.Rəhimov) tapşırılsın ki:

2.1. 2021-ci il ərzində fəaliyyətlərinin monitorinqi həyata keçirilmiş və nəticədə Azərbaycan Respublikasının Auditorlar Palatasının Şurası tərəfindən “qeyri-qənaətbəxş – 2” qiyməti ilə qiymətləndirilmiş aşağıdakı adları qeyd edilən auditor təşkilatları və sərbəst auditorların plandan kənar yoxlaması – 2023-cü ilin “Plan qrafikinə” daxil edilsin:

- “Biznes Audit” MMC (direktor Əliyev Məhərrəm Fayaz oğlu);
- “Fairness Consulting Group” MMC (Direktor Məmmədov Eldəniz Xosrov oğlu);
- “Next Audit Konsaltinq” MMC (Direktor Həsənov Qara oğlu);
- Kaspian Audit Kompani” MMC (Direktor Məhərrəmzadə Nərmin Eysan qızı);
- “İnvest Audit” MMC (Direktor Osmanlı Elnur Əjdər oğlu);
- Əliyev Aftandil Adıgözəl oğlu – Sərbəst auditor;
- Talıbov Tariyel Aslan oğlu – Sərbəst auditor;
- Çələbiyev Eldəniz Nazim oğlu – Sərbəst auditor;
- Nuriyev Alqış Tərlan oğlu – Sərbəst auditor;
- Əlizadə Rahim Ələkbər oğlu – Sərbəst auditor.

2.2. Fəaliyyətləri dayandırılmış və aşağıda adları qeyd edilən auditor təşkilatlarının apardıqları auditlərin keyfiyyətinin monitorinqi onların fəaliyyətləri bərpa edildikdən sonra həyata keçirilsin:

- "Victoryvvays Audit Consulting" MMC (Direktor Əzizov Elşən Bəxtiyar oğlu);
- "EON Audit" MMC (Direktor Ağayev Orxan Gülağa oğlu).

2.3. Auditor təşkilatlarının və sərbəst auditorların 2021-ci ildə apardıqları auditlər üzrə icrası başa çatmayan və ya icra olunmayan keyfiyyətə nəzarət ilə əlaqədar monitorinqlərin səbəbləri araşdırılsın və başa çatmayan işlərin 2022-ci ilin I rübündə icra edilməsi təmin edilsin;

2.4. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2022-ci il üçün Plan-qrafik"ə uyğun olaraq işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.

3. Auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların nəzərlərinə çatdırılsın ki, apardıqları auditlərin keyfiyyətinin monitorinqi üçün sənədləri təqdim etməkdən imtina etdikləri təqdirdə, barələrində Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nin V bölməsində nəzərdə tutulmuş intizam və tənbeh tədbirləri görüləcəkdir.

4. 2021-ci ildə səmərəli fəaliyyətlərinə görə Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin üzvləri Naib Yusifova (sədr), Elnur İbrahimova, Aygün Səfərovaya, Məcid Məcidova, Rövşən Yusifova və Elşən Abdulbağıyevə (sonuncu üç komitə üzvünün təmsil olunduqları qurumların rəhbərlərinə göndərilməklə) təşəkkür elan edilsin.

5. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin müfəttişləri Səftər Vəlizadəyə, Vidadi Talıbova və Azər Əliyevə 2021-ci il ərzində keyfiyyətə kənar nəzarət qaydasında həyata keçirilmiş monitorinqlərdə fəal iştirak etdiklərinə görə təşəkkür elan edilsin.

6. Bu qərarın və icmal-təhlilin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**